*AMEA Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 2* *ISSN 2663-4414*
*Səhifə: 20-25* *E-ISSN 2709-0762*
*https://doi.org/10.59849/2663-4414.2023.2.20*

# Türkiyə romanında kafkasayağı tendensiyalar
## *(Bilgə Karasunun "Gecə" romanı əsasında)*

**Mehman Həsənli**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: mehman.hesen@gmail.com

**Xülasə.** Zəngin inkişaf tarixinə malik olan Türkiyə romanı 1980-ci illərdə transformasiya proseslərindən keçmiş, modernist keyfiyyətlər qazanaraq yeni forma və məzmun keyfiyyəti qazanmışdır. Həmin dövrdə baş verən ictimai-siyasi proseslərin fonunda ədəbiyyatda yadlaşma problemi özünü qabarıq göstərmişdir. Frans Kafkanın, əsasən, "Çevrilmə" romanındakı Qreqor Zamzanın təsiri ilə formalaşan və sonrakı ədəbiyyatda kafkaesk üslub kimi səciyyələndirən bu meyil Türkiyə modernist romanının da əsas ideya-üslub istiqaməti kimi qəbul edilmişdir. Bu meylin Türkiyə romanında ən böyük əksini Bilgə Karasunun "Gecə" romanında görmək mümkündür. "Gecə" romanı təhkiyə strukturu və ya müəllif tərəfindən bilərəkdən dağıdılan struktursuzluğu, ənənəvi romanlara xas səbəb-nəticə əlaqəsinin inkar edildiyi nəsr nümunəsidir. Tədqiqat işində Bilgə Karasunun "Gecə" romanında gecə anlayışının simvollaşaraq, ölümləri və ümumilikdə qanunsuzluqları əks etdirməsi araşdırılmışdır. Romanın strukturundakı müəllif tərəfindən bilərəkdən edilən qarışıqlığın mahiyyətindəki özünüaxtarış, cəmiyyətdəki kimlik mübarizəsinin əksi məsələləri tədqiq edilmişdir. Romının sonuncu fəslində təqdim edilən ipuclarından məlum olur ki, təhkiyəçi-müəllifin xəstəxanada müalicə alan bir fərd olması fikri cəmiyyətdə əksliklərin, mənfiliklərin dərki üçün kafkasayağı maksimalist şərh xarakteri daşıyır.
**Açar sözlər:** Bilgə Karasu, Gecə, kafkaesk, roman, Türkiyə

**Məqalə tarixçəsi:** göndərilib – 08.11.2023; qəbul edilib – 17.11.2023

# Kafkaesque tendencies in Turkish novel
## *(On the basis of the novel "Night" by Bilge Karasu)*

**Mehman Hasanli**
Doctor of Philosophy in Philology, Associate Professor
Institute of Litertaure named after Nizami Ganjavi of ANAS
E-mail: mehman.hesen@gmail.com

**Summary.** Turkish novel with a rich history of development went through a process of transformation in 1980, gained a modernist quality and a new quality of form and content. The process of alienation in literature showed itself prominently during the social and political processes that took place in that period. This tendency that formed by the influence of the character Gregor Zamza in the novel "The Transformation" by Frans Kafka and characterized as Kafkaesque style in later literature was accepted as a main idea-style direction in Turkish modernist novel. In the novel "Night" by Bilge Karasu it is possible to see the great reflection of this tendency in Turkish novel.

The novel “Night” is an example of prose in which structure was broken by the structure of narration (*tehkiye*) or by the author and a cause and effect relationships of traditional novels was denied. In the research, the symbolization of the concept of night and the reflection of deaths and illegalities in general in the novel "Night" by Bilge Karasu were investigated. Self-discovery in the essence of confusion done by the author intentionally in the structure of the novel and the issues of the reflection of identity struggle in society is researched. In the last chapter of the novel as a result of the clues it turned out that the idea that the author is an individual receiving treatment in a hospital has the character of maximalist interpretation of Kafkaesque in terms of understanding the deficiencies and negativities in society.
**Keywords:** Bilge Karasu, Night, kafkaesque, novel, the republic of Turkey

**Article history:** received − 08.11.2023; accepted − 17.11.2023

## Giriş / *Introduction*

XIX əsrin sonları, eləcə də XX əsrin 60-70-ci illərinə qədər Türkiyə romanı sosial motivlərin üzərində qurulmuş realist romanlardır. Ədəbiyyatın güzgü funksiyası, birəbir inikas bu dövr Türkiyə romanında başlıca prinsip olmuş, hətta romantik inikas belə bir çox hallarda realizmin tərs tərəfi kimi qəbul edilmişdir. “Bir əsər nə qədər realist olaraq təriflənərkən, bir digəri üçün isə romantik sözü çox vaxt estetik mənada dəyərsiz, önəmsiz olaraq istifadə edilmişdir” (Ecevit, 2001, s. 84).

Belə bir kontekstdə modernist axımların ədəbiyyata daxil olmasını mövcud ədəbiyyatın özü əngəlləmişdir. Təbii ki, bunu bütün mənada yazılan əsərlərin hamısına şamil etmək olmaz. Mövcud sərhədləri aşan, modernist xüsusiyyətlər daşıyan romanlar az da olsa, yazılmışdır. Əhməd Həmdi Tanpınarın “Saatları qurma İnstitutu” əsərindəki zaman anlayışı modern estetikanın faktı kimi diqqəti cəlb edir. Ümumiyyətlə, Əhməd Həmdi Tanpınar yeni Türkiyə romanının həm nəzəri, həm də paraktiki olaraq yaranıb inkişaf etməsində böyük rol oynamışdır. Lakin gətirilən bu və bir neçə başqa misallar ümumi xarakter almamış, ədəbiyyatın ümumi panoramasını müəyyən edən elementlərə çevrilə bilməmişdir.

1970-ci illərdən başlanan yeni ədəbi proses 1980-ci illərdə daha geniş vüsət alaraq ədəbiyyatda ciddi transformasiya proseslərinin yaranmasını şərtləndirmişdir. Əksər Türkiyə ədəbiyyatşünasları 1970-ci illlərin sonu-1980-ci illəri Türkiyə roman janrının “qabıq” elementlərinin dəyişikliyə, transformasiyaya uğraması məsələsinə toxunmuşlar. Oğuz Atayın “Tutunamayanlar” romanı Ceyms Coysun “Uliss”i ilə müqayisə edilərək, bir növ eyni estetikada yazılmış əsər kimi 1970-ci illər Türkiyə yeni romançılığının əsas başlanğıc nöqtəsi, mükəmməl zirvəsi hesab olunur. Modernlə yanaşı, metatəhkiyə anlayışını öz içində ehtiva edən Oğuz Atay yaradıcılığı Türkiyə postmodern romançılığının inkişafına ciddi təsir göstərmişdir. Ümumiyyətlə, 1980-ci illər türk romanlarında modernist və postmodern elementlər birlikdə iştirak edirlər. “İlk avanqardist türk romanları modern və postmodern xüsusiyyətləri ədəbiyyata eyni mətndə gətirməyə başladılar. Postmodern romanın modernist özəlliklərdən böyük ölçüdə təcrid olunmuş örnəklərinin ilk dəfə 90-cı illərdə ortaya çıxmasının səbəbi modernizmin türk ədəbiyyatına 70 illik gecikməylə daxil olmasından qaynaqlanır” (Ecevit, 2001, s. 86).

Yusif Atılqanın 1973-cü ildə qələmə aldığı “Anayurd oteli” əsəri kafkaesk üslubda qələmə alınmış və Oğuz Ataydan sonra modernist yeni Türkiyə romanının ilk nümunələrindən biri hesab olunmaqdadır.1980-ci illər öncəsi yeni Türkiyə romanının üçlüsünü Fərid Edgünün yuxu ilə gerçəkliyin iç-içə təqdim edildiyi, magik realist elementlərə malik “Hakkaridə bir mövsüm” romanı tamamlayır. Beləliklə, Oğuz Atay, Yusif Atılqan və Fəridə Edgü 1970-ci illərdə Türkiyə romanının

yeni inkişaf xəttini müəyyən edən yazıçılar olmuş və bu istiqamət 1980-ci illərdə başda Orxan Pamuk olmaqla, Əhməd Altan, Lətifə Təkin, Mehmet Əroğlu və Bilge Karasu tərəfindən inkişaf etdirilmişdir.

**Əsas hissə / *Main Part***

XX əsrin əvvəllərindəki təlatümlü tarixi situasiyanın yaratdığı insanın tənhalaşması, yadlaşması və bu problemin nəsrdə yaratdığı kafkaesk üslubu 1980-ci illərdə Türkiyə nəsrinin əsas yaradıcılıq istiqamətinə çevrilmişdir. Ümumiyyətlə, modern mənada Karl Marks tərəfindən kapitalizmin, texnoloji inkişafın nəticəsi kimi təqdim edilən yadlaşma probleminin bədii ədəbiyyatda ən maraqlı nümunəsini Frans Kafka özünün "Çevrilmə" əsəri ilə yaratdı. Yadlaşma modern həyatla ayaqlaşmağa çalışan fərdin daxilində baş verən ziddiyyətli prosesin nəticəsi kimi başa düşülməkdədir. "Modern cəmiyyət quruluşu fərdə kütləvi əlaqə vasitələrinin artmasının qarşılığında fərdin daha çox öz daxili dünyasına qapandığı və yalnızlaşdığı, emosional mənada daha az paylaşımlar etdiyi və özünə qapandığı bir həyat təqdim etməkdədir" (Altıparmak & Durakoğlu, 2016, s. 180).

Mehmet Əroğlu, Əhməd Altan, Bilgə Karasu və Leyla Ərbil yaradıcılığında modernizmin üç atasından biri hesab olunan Frans Kafka yaradıcılığının təsirləri aşkar şəkildə hiss olunmaqdadır.

1980-ci illər Türkiyə romanının simasını müəyyən edən, üslub baxımından inqilabi dəyişiklikləri özündə ehtiva edən roman nümunələrindən biri Bilgə Karasunun "Gecə" əsəri olmuşdur. 1975-ci ildə yazılmış, 1985-ci ildə nəşr olunaraq 1991-ci ildə on ildə bir dəfə verilən Pegasus mükafatına layiq görülmüş "Gecə" romanı kafkaesk üslubun, çoxqatlı təhkiyəçiliyin işləndiyi yeni və fərqli roman növüdür.

Gündəlik üslubunu xatırladan, səbəb-nəticə əlaqəsini inkar edən, bilinən və ardıcıl süjet xəttinə malik olmayan "Gecə" romanı insanın yaşadığı kabusların yazı şəklində ifadəsidir. Bu baxımdan romanı sondan əvvələ oxuduqda qismən də olsa, ipuclarını tapmaq mümkün olur. Təhkiyə strukturunda müəllifin bilərəkdən yaratdığı qarışıqlıq, müəllifin özünün də mətnə daxil olaraq təhkiyə strukturuna müdaxilələri, təhkiyəçilər arasında ani keçidlər romana sirli bir mahiyyət vermişdir. Romanın son bölməsindəki bir cümlə "Bunları yazmaqla dəli olmaqdan xilas olunurmu?" (Karasu, 2020, s. 233) təhkiyəçinin, obrazın xəstəxanadakı dərin psixoloji təbəddülatını ifadə edən və romandakı hadisələrə, dövrə kabus şəklində münasibətin ifadəsi kimi maraq doğurur. Oğuz Atayın "Tutunamayanlar"ından fərqli olaraq, "Gecə"də gerçəklik-yuxu tandemi deyil, gerçəklik-kabus qarşılaşması fonunda dövrə münasibət sərgilənir. "Gecə bütün bunlardan əlavə, qaranlığı təhkiyə prinsipi olaraq mənimsəmiş roman. Yuxu deyil, kabus məntiqi içərisində irəliləyir" (Aytac, 2012, s. 339).

Təhkiyə strukturuna, səbəb-nəticə bağlılığını kəskin şəkildə inkarına görə, "Gecə" Türkiyə romançılığında bir ilkdir və özünəqədərki ənənəvi romançılığın istiqamətini ciddi şəkildə dəyişdirməyə səbəb olmuş roman nümunəsidir. Roman dörd fəsildən ibarətdir və hər fəsildə təhkiyəçi dəyişir. Birinci fəslin sonunda qeyd olunduğu kimi ("Bu dəftər bitdi" (Karasu, 2020, s. 82), hər fəsil təhkiyəçinin dəftəridir. Birinci fəsildəki təhkiyəçi ilə ikinci fəslin təhkiyəçisi düşüncə baxımından hardasa bir-birinə zidd düşüncələrə sahibdirlər. İkinci fəslin təhkiyəçisi sanki gecə işçilərindən biridir. Bu fəslin təhkiyəçisi idealistdir. Şəraitdən asılı olmayaraq, insanların inandığı, güvəndiyi birilərinin mütləq olmasını zəruri hesab edir. "Yenə də bilməliyik ki, bu dünyada bizi aldatmayacaq üç-beş nəfər vardır... Bu kəslər yalnız bizi deyil, bütün dünyanı ayaqda tutacaq. Buna inanmağa, buna güvənməyə məcburuq" (Karasu, 2020, s. 85).

Bu fəslin təhkiyəçisi həm də mühafizəkardır və bu baxımdan əsərdəki digər təhkiyəçilərlə düşüncələri ziddiyyət təşkil edir. "İnsanlar böyüklüyü də, böyüklüyün toxunulmazlığını da unutmuş vəziyyətdədirlər... Atamın qüsurları, ziddiyyətləri çoxdur. Amma böyüklərə olan hörmətini unuda bilmərəm" (Karasu, 2020, s. 88).

Bəzən müəllif təhkiyəçini, obrazın varlığını belə (Sevinc, Sevim) inkar edir. Onların həqiqətən də olub-olmaması ilə bağlı şübhəyə düşür. Bu baxımdan müəllif Kafkadan da irəli gedir. Gecə təkcə tənhalığın simvolu deyil, daha dərin, bütün pislikləri, əyrilikləri özündə ifadə edən simvoldur. Dövrün cinayətləri, bir qrupun törətdiyi qətllər də məhz gecə vaxtı, "Gecə işçiləri" adlanan qrup tərəfindən törədilir.

Romanda gecə simvollaşaraq qeyri-qanuni hadisələrin, cinayətlərin baş verdiyi zaman aralığı kimi götürülmüşdür. Hər şey – günün batması, gecənin gəlməsi ilə baş verir. "Gecə yavaş-yavaş gəlir, enir. Çuxur yerləri dolmağa başladı belə. Oraları doldurub ovaya yayılmağa başlar-başlamaz hər yer boza dönüşəcək. İşıqlar bir müddət yanmayacaq. Nə çuxurda, nə düzdə. Təpələrin aydınlığı bir müddət hamıya yetəcək kimi görünəcək. Sonra təpələr də qaranlıqda qalacaq" (Karasu, 2020, s. 17).

"Gecə" romanında vahid süjet xəttindən danışmaq mümkün olmadığı kimi, obrazları da qırıq-qırıq, xəyali və bəzi hallarda yuxu, xatırlatma kimi mövcuddur. Müəllif yazdıqlarının qalacağına qərarı oxuyan bir tək oxucusunun (ehtimal ki xəstəxana nəzarətçisini nəzərdə tutur) qərar verəcəyini bildirir. Müəllifin inandığı tək şey təhkiyənin dilidir. Təhkiyənin özünə də inamsızlıq, təhkiyəçilərin tez-tez müəmmalı şəkildə bir-birini əvəz etməsi müəllifin romanda ənənəvi bütün normaları dekonstruksiyaetmə cəhdləri "Gecə"yə fərqli mahiyyət qazandırmışdır.

Müəllif bütün hallarda dilin, təhkiyənin mövcudluğuna qismən də olsa inanır. "Dil bu qaranlığın içində yaşaya bilən kimi görünən tək şey olacaq. Heç bir ağırlığın, heç bir gerçəkliyin qalmadığı bu yerdə. Qaranlığın gerçəkliyə bənzəyən tək tərəfi danışa bilməsi olacaqdır. İki nəfər arasında. İki divar arasında" (Karasu, 2020, s. 17).

Roman böyük ölçüdə təhkiyəçilərin düşüncələrinin ifadəsi xarakterindədir. Gecə işçiləri, onların törətdiklərinə pəncərədən şahidlik edən Düzəltmən (Yaratman), onun məktəb yoldaşı N.(adını dəqiq verməməsi bir taktiki gedişdir və müəllif burada da iz azdırmaqla məşğuldur. "Adının Naal, Nait, Nahi olmasının hər hansı önəmi qalmadığı üçün" (Karasu, 2020, s. 91), təhkiyəçi ilə münasibəti olan Sevinc, Sevim (sonradan təhkiyəçi hər ikisinin varlığını inkar edir) romanda iştirak edən obrazlardır.

Romanın sirli strukturunda ipuclarını əvvəlki bölmələrində daha tez-tez, sonrakılarda isə seyrək şəkildə rastlaşan "Qeydlər" vasitəsilə əldə etmək olar. Bəzən bu "Qeydlər"də müəllifin özü də iştirak edir, müəlliflə təhkiyəçi arasında keçid baş verir. "Sözü uzadıb hər şeyi qarışdırıram? İndiyə qədər baş vermiş doğru dürüst bir şey yox. Keçidin sərtliyi, diqqətçəkiciliyi istədiyim bir şeydirmi? Halbuki, layihələndirdiyim müxtəlif mövzulardan ancaq birini hiss etdirə bildim indilik. Dağınıqlığı toparlamaq gərəyi var, hər şeyin ardındakı yazar mənəm, mənim bir yaratdığım varmı? Qərarlaşdırmaq gərəyi var..." (Karasu, 2020, s. 34)

Gecə işçiləri adlandırılan qrupun törətdiyi cinayətlər, insanı bir heç kimi sayaraq öldürmələri insana olan münasibət, onun həyatına asan bir şəkildə son qoyulmağın mümkünlüyünü ifadə edən ağrıdıcı faktdır. Tez-tez baş verən qətllər və bu hadisələrin qısa zaman aralığında unuduluşu zamandakı insanın dəyərinin, mahiyyətinin nə qədər ucuz olması qənaətini bildirir. Romanda divara çəkilən şəkillərin insan qanından daha yaddaqalan olması bildirilir. "Yağmur, sabunlu su, qanları yox edər zamanla; amma boyların qarşısında gücsüzdür" (Karasu, 2020, s. 43).

Romanın birinci fəslində təhkiyəçi bir neçə yerdə öz kimliyini açmaq və onu tanımağa şərait yaradır. Məlum olur ki, qeyri-müəyyən yol gedərkən içində hiss etdiyi öldürülmə təlaşı onun Gecə işçilərinə qarşı olması, onların əks tərəfində durması və Gündüzçü adlanması ilə bağlıdır. "Uşaqlar, böyüklər durmadan arxamca qışqırırdılar: Gün-düz-çüüüüü, Gün-düz-çüüüü.... Yeni çıxan sözlərdəndi yəqin. Amma gecənin işçilərinin divarlara, daşlara buraxdıqları yazılı, şifahi izlər arasında belə bir aşağılama sözünə rast gəldiyimi xatırlamıram.... Gündüzçü gecənin əksi olaraq istifadə oluna bilərdi" (Karasu, 2020, s. 48).

Bəzən romanda başqa bir təhkiyəçi, – ehtimal olunan oxucu mətnə daxil olaraq olanlara münasibət bildirir. Mövcud qarmaşanı sanki aydınlatmağa çalışır. Əslində isə bu, müəllif tərəfindən düşünülmüş gediş xarakteri daşıyır və qarışıqlığın, ziddiyyətin daha da dərinləşdirilməsinə xidmət

edir. “Hər şeyin iç üzünü bilən, amma soyləməyən kimi göstərən yazılan nəfərlə, bilən, söyləməyən, amma söyləmədiyini bəlli etməkdən geri durmayan yazar arasındakı incə ayrımı nəzarət altında necə saxlaya bilərəm?” (Karasu, 2020, s. 73).

Bəzi hallarda müəllif yazılanların kimin yazması ilə bağlı suallar verir. Təhkiyə strukturuna təzyiqlər edir, ənənəvi təhkiyə üsulu sorğuya çəkilərək sirrin daha dərinlərə gömülməsinə şərait yaradır. “Bunu hansımız yazdı? Heç birimiz. Amma ikimiz də yaza bilərdik. Əlbəttə, gerisini fərqli formalarda gətirərək...” (Karasu, 2020, s. 113).

Romanın dördüncü fəslinin əvvəlində hadisələri nəql edən Sevinc olsa da, fəslin sonlarına doğru Sevincin əslində mövcud olmadığı ilə bağlı şübhələr meydana çıxır. Bu məqamda yuxu ilə gerçəklik, kabusla reallıq arasında sezilməyən keçid baş verir. Müəllif bunu sezdirməməyə, gizlətməyə çalışır. Müəllif tez-tez əsərə müdaxilədən bəhs açır, kiminsə onun dəftərinə əlavələr etdiyini bildirir. Bununla süjet ətrafında yaranan sualları daha da artırır. “Bir başqa əl qatıldı yazıya. Kitabın, artıq “kitabım” dediyim bir yazının hər yanı dəlik-deşik sanki” (Karasu, 2020, s. 161).

Romanın axırına yaxın, sonuncu bölmələrdə müəllif romanın yazılması, onun strukturu ilə bağlı məqamlara aydınlıq gətirməyə çalışır. Müəllif özü də yazdığının janr-üslub xüsusiyyətlərini bir tədqiqatçı kimi yanaşaraq oxucuya təqdim edir. Ənənəvi romanlardakı səbəb-nəticə əlaqəsinin, sistemli süjet xəttinin səbəbini də bunu bir dəftər kimi yazılması və bir oxuyucuya ünvanlanması kimi təqdim edir. “Halbuki, bu dəfə oxuyucular, oxuyucu olmayacaq; bir oxuyan olacaq bəlkə bu dəftərlərin qarşısında” (Karasu, 2020, s. 179).

Sona doğru dumanlar nisbi də olsa, çəkilməyə başlayır. Məlum olur ki, bütün bunları qələmə alan xəstəxanaya, ruhi dispanserə yerləşdirilən bir şəxsdir. Onu həyatda saxlayan tək şey yazı yazmaqdır.

## Nəticə / *Conclusion*

Bilgə Karasunun “Gece” romanı üslubu baxımından yeni türk romanının ən önəmli səhifəsini yaratmış, ənənəvi romançılığın istiqamətinin dəyişməsində əhəmiyyətli rol oynamış əsərlərdən biridir. “Müəllif gecəni qorxu və yalanla əlaqələndirərək, insanın qaranlıq tərəfinə işıq salır. Gecələr onları oyaq saxlayan qorxu insanlara zövq vasitəsi kimi təqdim edilir. Gecə rəsmi ideologiyanın öz legitimliyini təsdiq etdiyi zaman dövrü olduğu halda, vətəndaş üçün qorxu yaradan, aşılması mümkün olmayan həddir. Bu ərəfənin xidmətçiləri olaraq, gecə işçiləri qorxuya və onun gətirdiyi həzzə hakim olanlardır” (Cengiz, 2015, s. 52).

Kafkaesk üslubda qələmə alınan “Gecə” romanı həmin xəttin ideya çərçivəsini də aşaraq dövrünün gerçəkliklərini kabus vasitəsilə təqdim etməyə çalışmış, səbəb-nəticə əlaqəsini, ənənəvi təhkiyə üslubunu, süjet quruculuğunu bir kənara qoyaraq və daha çox onlara qarşı gələrək türk romançılığını yeni mərhələyə qaldırmışdır.

## Ədəbiyyat / *References*

Altıparmak, İ., & Durakoğlu, A. (2016). FRANZ KAFKA’NIN ‘DÖNÜŞÜM’ ADLI ESERİNİN SOSYOLOJİK AÇIDAN ANALİZİ. *AİBÜ Sosyal Bilimler Enstitüsü Dergisi*, 171-184.

Aytac, G. (2012). *Çağdaş Türk Romanı Üzerine İncelemeler.* Ankara: Doğu Batı Yayınları.

Cengiz, S. (2015). Bilge karasu’dan distopik bir modernizm eleştirisi: Gece. *Uluslararası Sosyal Araştırmalar Dergisi*, 49-54.

Ecevit, Y. (2001). *Türk romanında postmodern açılımlar.* İstanbul: İletişim yayınları.

Karasu, B. (2020). *Gece.* İstanbul: Metis Yayınları.

# Тенденции стиля «кафкаэск» в турецком романе
***(на основе романа Билге Карасу «Ночь»)***

**Мехман Гасанли**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: mehman.hesen@gmail.com

**Резюме.** Турецкий роман, пройдя богатый исторический путь развития, в 1980-х годах прошёл процессы трансформации и, приняв модернистские качества, получил новые формы и содержание. На фоне происходящих в тот период общественно-политических процессов в литературе отчётливо выступает проблема отчуждения. В особенности в романе Ф.Кафки «Превращение» влияние Грегора Замзы способствовало формированию стиля, именуемого в последующей литературе как «кафкаэск», который был принят как основное идейно-стилевое направление турецкого модернистского романа. В турецком романе это свойство в большей степени нашло отражение в романе Билге Карасу «Ночь». Роман «Ночь» это образец в прозе отрицания повествовательной структуры или сознательного отрицания автором структурного обрушения и традиционно присутствующей в романах причинно-следственной связи. В статье исследуется символизация понятия «ночь» в романе «Ночь» Билге Карасу, воплощение смерти и беззакония вообще. В структуре романа автором сознательно показано по сути воплощение потерянности и поиска самого себя, а в целом вопросы отражения в обществе борьбы за идентичность. В последней главе романа установлена личность автора, в результате перипетий лечащегося в больнице, что приводит к мысли, что для осознания противоречий, недостатков, наличествующих в обществе, требуется определение, характеризуемого как условное максималистское, понятия «кафкаэск».
**Ключевые слова:** Билге Карасу, «Ночь», кафкаэск, роман, Турция